# Uşaq və yeniyetmələrin davranış qüsurları və onların aradan qaldırılmasının pedaqoji-psixoloji imkanları

**Nuralı Çələbiyev**
**psixologiya üzrə fəlsəfə doktoru,**
**AMİ-nin Şəki filialının dosenti**

Müasir qloballaşan dünyada baş verən siyasi, iqtisadi, sosial və mənəvi proseslər cəmiyyətin həyatının bütün sahələrdə olduğu kimi, uşaq, yeniyetmə və gənclərin həyatında da ciddi dəyişmələrlə müşayət olunur. Yad mədəniyyətlərin təsirinin genişlənməsi, inteqrasiya proseslərinin sürətlənməsi cəmiyyətimizdə dəyərlər sisteminin məzmununa ciddi təsir göstərir, gənc nəslin təlimi və tərbiyəsi məsələlərinin həyata keçirilməsinə əngəl törədən yeni problemlər doğurur. Zəmanəmizdə "**destruktiv**", **"asosial"** və **"antisosial"** davranışlı uşaq və yeniyetmələrin təlimi və tərbiyəsi ilə bağlı problemlər kəskin xarakter almağa başlamışdır. Ənənəvi tərbiyə nəzəriyyəsində də "çətin", "qüsurlu davranışlı" uşaq və yeniyetmələr problemi mövcud idi. Professor Ə.Ə.Əlizadənin qeyd etdiyi kimi, şıltaq, tərs və ya yalançı uşaqlar əvvəllər də olub, lakin onları keşmiş zamanlarda bu günkü ölçülərlə "çətin" uşaqlar saymayıblar və hövsələ ilə ailə ocağının öz hərarətində tərbiyə ediblər.

Müasir dövrdə isə vəziyyət tam başqadır. Uşaq və yeniyetmələrdə müxtəlif xarakterli davranış qüsurları problemi zəmanəmizdə geniş yayılmış və həllini gözləyən aktual problemlərdən birinə çevrilmişdir. Konkret elmi tədqiqatların nəticələrinə görə, məktəb yaşlı uşaq və yeniyetmələrin 12%−25%-də müxtəlif mənşəli davranış pozğunluqlarına təsadüf olunur. Bu göstərici qızlara (15%) nəzərən oğlanlarda (85%) dəfələrlə yüksəkdir.

Elmi statistikaya görə, müasir dövrdə psixoloji problemləri, keçici emosional və davranış pozğunluqları olan uşaqların sayı 1970-ci illərlə müqayisədə iki dəfə artmışdır. Dərsdən yayınan, evdən qaçan, dilənçilik edən, oğurluq və qarətlər törədən, siqaret çəkən, alkoqollu içkilər qəbul edən, yaşlıların tələblərinə

müqavimət göstərən, aqressiv, məsuliyyətdən boyun qaçıran, dikbaş, ədəbsiz, destruktiv davranışlı uşaq və yeniyetmələr müasir dövrdə "risk qrupu"na aid edilir.

Cəmiyyətdə qəbul edilmiş mənəvi, hüquqi və sosial standartların və normaların pozulmasının səbəblərinə və onların aradan qaldırılması problemlərinə artan diqqət və narahatlıq sosiologiya, koreksiyaedici pedaqogika və psixologiya elmlərinin qovuşuğunda **"deviantologiya"** adlanan yeni elm sahəsinin yaranmasına gətirib çıxarmış, "davranış qüsurları" anlayışı yerinə "deviant", "addiktiv", "delikvient" davranış terminləri daha geniş işlənməyə başlamışdır.

Uşaq və yeniyetmələrdə davranış qüsurlarının və ya müasir terminlərlə desək, **"deviant", "addiktiv"** və **"delikvient"** davranışın müxtəlif təzahürlərinin meydana gəlməsi psixoloji, psixofizioloji, və sosial –pedaqoji olmaqla kompleks səbəblərlə bağlıdır.

Müasir elmi təsəvvürlərə görə uşaq və yeniyetmələrdə davranış qüsurlarının səbəbləri içərisində psixoloji və sosial problemlər aparıcı yerdə durur. Hüquqi və əxlaqi şüurun formalaşdırılmasında yol verilən nöqsanlar, şəxsiyyətin tələbatlarının məzmunu, xarakteri, xüsusiyyətləri, uşaq və yeniyetmədə özünü göstərən ciddi psixi pozğunluqlar, ailənin, bütövlükdə cəmiyyətin uşaq və yeniyetmələrə münasibətinin xarakteri və s. kimi amilləri onlarda davranış qüsurlarının yaranmasına səbəb olan əsas amillər hesab etmək olar.

Uşaq və yeniyetmələrdə müşahidə olunan davranış qüsurlarını **xarakterik** (qeyri-patoloji) və **patoloji** olmaqla iki əsas qrupa ayırmaq olar. Xarakterik davranış pozğunluqları keçici, situativ cəhətdən şərtlənmiş davranış dəyişkənliyidir və o, daha çox müəyyən mikromühitdə (məsələn, yalnız evdə, yalnız məktəbdə, yalnız küçədə) təzahür edir. Xarakterik davranış pozğunluqları özlərinin psixoloji məzmununa və istiqamətinə görə fərqlənir, fərdin sosial adaptasiyasına ciddi təsir göstərmir. Patoloji davranış qüsurları isə uşaq və yeniyetmənin həyatının bütün sahələrində total məzmunlu, psixogen mənşəli davranış reyaksiyaları kimi əks olunur, müxtəlif davranış pozğunluqları şəklində təzahür edir, daha çox nevrotik, kliniki xarakterli simptomları ilə fərqlənir. Patoloji davranış qüsurlarına nümayişkəranə üsyankarlıq, hiperaktivlik, autistik xarakterli pozğunluqları misal

göstərmək olar. Qeyd olunan belə davranış qüsurlarının genezisi psixi xəstəliklərlə, psixi və əqli inkişafda geridəqalma, autizm, mərkəzi sinir sisteminin üzvi zədələnməsi, hiperaktivliklə diqqətin çatışmazlığı sindromu və s. ilə əlaqədardır, tibbi və psixoterapevtik korreksiya tələb edir. Bu məqsədlə dərman terapiyası, psixoterapiya, valideynlər və müəllimlərlə maarifləndirici söhbətlər və s. kimi metodlardan istifadə etmək məqsədəuyğundur.

Uşaq və yeniyetmələrdə müşahidə olunan xarakterik davranış qüsurlarının profilaktikası və korreksiyasında anlatma, təəccübləndirmə, məyus etmə, müsbət emosiyaların canlandırılması, yarış və s. kimi psixoloji xarakterli stimullaşdırıcı metodlardan istifadə etmək səmərəli nəticə verə bilər.

Məlumdur ki, adaptasiya potensialı zəif olan insanlar dəyişən həyatın yeni normaları ilə yaşamaqda çətinlik çəkdikləri kimi , öz həyatlarının böhranlı, keçid dövrünü yaşayan yeniyetmələr də ətrafdakı yaşlı adamlarla normal münasibətlər qurmaqda, öz hərəkətlərinə düşüncəli münasibət bəsləməkdə çətinlik çəkir, psixoloji maneələrlə üz-üzə qalır, çıxılmaz vəziyyətə düşürlər. Yeniyetmələrin şəxsi həyatında meydana gələn pozitiv maraqlarını anlamayan valideynlər və müəllimlər onlarla dil tapa bilmir və ya onları qəbul etmək istəməyən uşaq və yeniyetmələr yeni maraq və təlabatlarını təmin edə bilmək üçün əlverişli mühit axtarır ki, bu da adətən onların referent qrupu və ya həmyaşıdlar qrupu olur.

Uşaq və yeniyetmələrdə davranış qüsurlarının meydana gəlməsində **normal yaş böhranlarının**, sinir sistemi tipinin, ailədaxili münasibətlərin, onların daxil olduqları sosial qrupların güclü təsiri vardır. Bu cəhətdən əlverişsiz həyat şəraitinin, ailə tərbiyəsinin, uşaq və yeniyetmə ilə ünsiyyət üslubunun xarakteri daha təsirli amil kimi tərbiyə işində daim nəzərə alınmalıdır. Ailədə ata ilə ana, valideynlərlə uşaqlar arasında qeyri-normal münasibətlər olduqda, hər kəs öz mənafeləri ilə yaşadıqda, uşaq və yeniyetmələrin problemlərinə etinasız münasibət bəslənildikdə, onlar diqqət və qayğıdan kənarda qaldıqda tədricən mənəvi baxımdan öz valideynlərindən uzaqlaşır, doğmalıq hissləri zəifləməyə başlayır. Belə münasibətlər mühitində böyüyən uşaq və ya yeniyetmə tədricən ailədən

soyuyur, tərbiyəvi təsirlərə biganəlik və ya müqavimət göstərir, “deviant” davranış sabit xarakter almağa başlayır, ailədə nəsillər arasında konfliktlərə meydan açılır.

Məlumdur ki, yeniyetməlik və erkən gənclik yaş dövrləri sosial-psixoloji baxımdan ən mürəkkəb dövrlər hesab olunur. Bu yaş dövrlərində sinir-psixi pozğunluqlar sırasında “deviantlıq” və ya davranış pozğunluğu sindromu birinci yerdə durur. Belə davranış əksər hallarda alkoqol və müxtəlif toksiki tərkibli maddələrdən istifadə ilə müşayət olunur. Bir sıra psixoloji ədəbiyyatlarda belə asılılığa səbəb olan davranış pozğunluğu “**addiktiv davranış”** adlandırılır.

İnsanı asılı həyat yaşamağa məhkim edən addiktiv davranış mexanizmlərinin kökləri uşaqlıq yaş dövrləri, ailə tərbiyəsinin xüsusiyyətləri ilə bağlıdır. Evdə, valideynlərin mühitində uşaq şəxsiyyətlərarası əlaqələrin və emosional münasibətlərin “dilini” öyrənir. Əgər uşaq valideynlərindən dəstək, emosional istilik görmürsə, onda psixoloji müdafiəsizlik hissi baş qaldırır. Uşaq böyüdükcə, bu hiss onun həyatda qarşılaşdığı insanlara köçürülür və yaranmış diskomfort yeniyetmə və gəncləri fəallığı artıran, süni komfort və eyforiya vəziyyəti yaradan müxtəlif maddələrdən istifadəyə təhrik edir. Bu, əvvəlcə yeniyetmə və gənclərdə ilk sınaqlardan başlanır,sonda faciəvi sonluqla başa çatır, yəni tam asılı davranış tipinə çevrilir. Rus sosioloqu Y.Qlinskinin qənaətinə görə, yeniyetmə yaşında olan oğlanların 75%-nin alkoqolla tanışlığı var və belə içkilərin “dadını” bilirlər.

Addiktiv davranış dedikdə, yeniyetmə və gənclərin bir və ya bir neçə kimyəvi tərkibli birləşmələrdən istifadəsi və bu əsasda onlarda şüurun vəziyyətinin dəyişməsinə və asılılığa səbəb olan patoxarakterelojі reaksiyalarının yaranması nəzərdə tutulur. Yeniyetmə və gənclərin siqaret, alkoqol, narkotika və taksikoloji tərkibli maddələrdən istifadəsi, o cümlədən qumar və kompyuter oyunlarına hədsiz aludəçiliyi zamanı onlarda ifadəli patopsixoloji pozğunluqlar müşahidə olunmasa da, “mən” obrazında və motivasiya sahəsində müəyyən dəyişikliklərin, xüsusilə, asılılıq vəziyyətinin baş verməsi haqqında tutarlı elmi nəticələr vardır. Həddi –buluğa çatmamış şəxslər tərəfindən alkoqollu, narkotik, psixoaktiv və psixotrop tərkibli maddələrdən istifadənin miqyasının genişlənməsi (barlarda, diskotekalarda, yeniyetmə məclislərində və s.) hər şeydən əvvəl bu problemi

sosial-psixoloji, pedaqoji, tibbi və hüquqi problem kimi nəzərdən keçirməyi tələb edir. Çünki yeniyetmənin sərxoşluğu, narkotik və toksiki maddələrdən sui istifadəsi həmişə digər davranış pozğunluqlarına, xüsusən delikvient (hüquqa zidd) əməllərə yol açır.

Addiktiv şəxsiyyətin baza xarakteristikasında "asılılıq" sindromu əsas yer tutur. Addiktivlər özünümüdafiə üçün psixoloqların "istək üzrə təfəkkür" adlandırdıqları mexanizmdən məharətlə istifadə edirlər ki, bu zaman təfəkkürün məzmunu emosiyalara tabe vəziyyətdə olur. Belə hallarda qedonistik (həyat zövq-səfa üçündür) ustanovkalar güclənir, sərvətlərdən istənilən yolla həzz almaq cəhətləri baş qaldırır.

Müasir yeniyetmə və gənclərdə alkoqolizm və taksikomaniyanın ilkin diaqnostikasına, tibbi müəssisələrdə və məktəb psixoloji xidmət sistemi vasitəsilə psixoprofilaktikası və psixokorreksiyasına ciddi ehtiyac vardır. Addiktiv davranışlı gənclərdə şəxsi avtonomiya ilə bağlı motivasiya üstünlük təşkil edir və real həyatda onların çoxunda passiv qiyam, az bir qismində emansipasiya reaksiyaları, bir qismində isə öz "mən"-ini müdafiə motivasiyası daha yüksək səviyyədə ifadə olunur. Məlumdur ki, ünsiyyət motivasiyası insan motivasiyalarının strukturunda ən vacib motivasiyalardan biridir. Ünsiyyət motivasiyasından bəhs edərkən qeyd etmək lazımdır ki, "daviant" davranışlı yeniyetmə və gənclərdə əks cinsə məhəbbətə, intim yaxınlığa cəhd etmənin səviyyəsi aşağı, neqativ cinsi meyllərin səviyyəsi isə yüksək olur. Bu da onlarda rol-cins davranışının pozulmasının nəticəsidir. Belə yeniyetmə və gənclərdə bəzən asosial, aqressiv və destruktiv hərəkətlər, dağıdıcı tendensiyalar müşahidə olunur. Onlar öz mülahizələrində "yenidən", "əvvəlki kimi", "gələcəkdə", "bir daha" toksiki vasitələrdən istifadə etməyəcəklərini", "belə həyat yaşamayacaqlarını" bildirirlər. Halbuki, belə motivasiya bu cür zərərli vərdişlərə düçar olmamış yeniyetmə və gənclər üçün xarakterik deyildir.

Həddi-buluğa çatmamışlarda psixotrop maddələrdən istifadə tələbatının meydana gəlməsinin əsas amili yaş xüsusiyyətləri, əlverişsiz mikrososial inkişaf situasiyası, ali sinir fəaliyyətindəki pozğunluqlardır. Yaşlıların düşüncəli

müdaxiləsi nəticəsində bəzi hallarda sui istifadəni aradan qaldırmaq ya mümkün olur, ya da o kompensasiya oluna bilir, yəni medikamentoz peraparatlardan istifadə etmədən müalicə oluna bilir. Əgər yeniyetmənin həyati vacib sosial təlabatlarının təmin edilməsi üçün şərait yoxdursa, göstərilən frustrasiya amillərini aradan qaldırmaq cəhdləri əbəsdir. Heç bir dərman, cəza və ya hədə-qorxu onun qarşısını ala bilməz. Həddi –buluğa çatmamışların psixotrop vasitələrdən sui istifadəsinin aradan qaldırılması və profilaktikası sahəsində həyata keçirilən tədbirlərin az səmərəliliyi və çətinliyi onunla əlaqədardır ki, buna görə məsul olan yaşlılar bunu narkologiyanın problemi hesab edirlər. Öz-özlüyündə formalaşmaqda olan yeniyetmə şəxsiyyətinin yaş xüsusiyyətləri üçün bütün növ davranış pozğunluqlarının səbəbləri eynidir. Hüquq pozğunluğu, alkoqolizm, narkomaniya və toksikomaniya, affektiv və nevrotik pozğunluqlar -bütün bunların hamısı eyni zəncirin həlqələridir. Həddi-buluğa çatmamışlarda alkoqolizm və narkomaniyanın profilaktikası və aradan qaldırılmasının rasional yolu nədən ibarətdir? Valideynlər və müəllimlər həddi-buluğa çatmışlarda alkoqolizm və narkomaniyanın qarşısının alınmasına nədən başlamalıdırlar?

Bir çox mütəxəssislər belə hesab edirlər ki, bu sahədə işlərə uşaqların lap kiçik yaşlarından başlamaq lazımdır. Bu sahədə aparılacaq profilaktik işlərin əsas komponentlərinə şagird şəxsiyyətinin, onların psixi inkişaf xüsusiyyətlərinin öyrənilməsi; uşağın tərbiyə üslubunu müəyyənləşdirmək məqsədilə onların ailələrinin öyrənilməsi; yaşlıların spirtli işkilərdən müntəzəm istifadə etdikləri ailələrin aşkar edilməsi daxildir. Bu istiqamətdə müsbət nəticələrin əldə edilməsi üçün valideynlərlə fərdi və kollektiv iş formalarından istifadə etmək, şagirdin ailəsinə gedişlər, valideynlərlə söhbətlərin, mühazirələrin, məsləhətlərin, anket sorğularının tərbiyə təcrübəsi mübadiləsinə aid konfransların keçirilməsi, hüquqi və tibbi maarifləndirmə və s. kimi iş formalarından istifadə olunan bilər. Şagirdlər arasında maarifləndirici tədbirləri həm dərslərdə, həm də dərsdənkənar vaxtlarda keçirmək çox vacibdir. Tərbiyə işlərinin, sinif tərbiyə saatlarının planına "Sağlamlıq Günləri !", müsabiqələrin, plakatların, rəsmlərin, inşa yazılarının ("XXI əsrə narkotiklərsiz", "Narkotiklərə yox deyək" və s.) daxil edilməsi və

keçirilməsi, hər bir sinif otağında "Sağlam həyat tərzi uğrunda" guşənin olması vacibdir. Şagirdlərin idman yarışlarında iştirakları, onların hobbiləri və s. haqqında məlumatların burada yerləşdirilməsi müsbət təsirə malik ola bilər. 7-11 sinif şagirdləri arasında müxtəlif mövzularda disputların, tok-şouların keçirilməsi kütləvi maariflәndirmə işinə fayda gətirə bilər. Müəllimlər şagirdlərə alkoqolizm və narkotika əleyinə yazılmış elmi ədəbiyyatları oxumağı, İnternetdən materiallar, məlumatlar toplamağı tapşıra bilər. Müsbət nəticələr əldə etmək üçün keçirilən tədbirlərdə videoçarxlardan istifadə olunması narkoloq məktəb psixoloqu, həddi-buluğa çatmayanların işləri üzrə inspektor kimi mütəxəssislərin dəvət olunması məqsəduyğundur.

Davranış qüsurlu uşaqlarla işləyərkən hər şeydən əvvəl onların qayğıdan kənarda qalmasının səbəblərini aradan qaldırmağa, onları həmyaşıdlar qrupuna inteqrasiyasına diqqət yetirmək lazımdır.

Addiktiv davranışlı yeniyetmə və gənclərlə psixokorreksiya tədbirlərinin işlənib hazırlanmasında alkoqol və toksiki maddələrə tələbatlara qarşı alternativ motivasiyanı yarada biləcək proqramlar işlənilməlidir. Belə motivasiyanı saxlaya biləcək fundamental elementlər elə qurulmalıdır ki, onların əsasında psixoterapevtik proqramlar yaratmaq mümkün olsun. Yeniyetmə və gənclərdə addiktiv davranışın təzahürlərini aradan qaldırmaq üçün onlarda sosial immuniteti inkişaf etdirmək, sosial davranış mədəniyyəti aşılamaq, həmyaşıdlar qrupunda pozitiv sosial status qazanmaq üçün öz yerini tapmaq motivləri formalaşdırılmalıdır. Yeniyetmə və gənclərdə yenidəntərbiyə metodları vasitəsilə həyat strategiyasını düzgün anlamaq və düşüncəli məqsədlər əsasında kreativ nəticələrə nail olmaq qabiliyyətləri, konstruktiv dünyagörüşü və xarakterin əxlaqi tərbiyəlilik səviyyəsinin mərhələli çəkildə yüksəldilməsinə çalışmaq lazımdır.

Uşaq və yeniyetmələrdə müşahidə olunan müxtəlif davranış pozğunluqları mürəkkəb və çoxsəviyyəli prosesdir. Davranış pozğunluqları ciddi psixi və somatik xəstəliklərin həm səbəbi, həm də nəticəsi kiimi özünü göstərə bilər. Uşaqlarda davranış qüsurları nə qədər tez aşkar olunarsa və ya qabaqlayıcı-profilaktik tədbirlər vasitəsilə qarşısı vaxtında alınarsa, onları daha tez və səmərəli şəkildə

aradan qaldırmaq, daha ciddi patoloji pozğunluq halına keçməsi riskini azaltmaq olar.

Valideynlər, məktəb psixoloqları, məktəb həkimi, sosial pedaqoqlar və sinif rəhbəri qarşısında duran ən mühüm və təxirəsalınmaz vəzifələrdən biri məhz davranış qüsurları olan uşaq və yeniyetmələrlə aparılacaq psixoloji profilaktika və korreksiya işlərinin sistemli şəkildə, konkret proqramlar əsasında həyata keçirilməsini təmin etməkdən ibarətdir. Bu məqsədlə uşaq və yeniyetmələrin daxil olduğu ailələrdə ailədaxili münasibətləri sağlamlaşdırmaq məqsədilə maarifləndirici tədbirlər həyata keçirilməli, belə uşaq və yeniyetmələrlə fərdi və qrup şəklində aparılan iş formalarına istinad edilməlidir.